# Nizami zehniyyəti, Füzuli "əngəli"... və dram

**Nizami elə bir ədəbi potensialın sahibi idi ki, əgər o, dünyanın əyalətində - Gəncədə deyil, mərkəzdə: Antik Yunanda və yaxud heç olmazsa, Romada doğulsaydı, bu enerjidən Antiqona, Medeya kimi dramatik qəhrəmanlar və yaxud "Edip kompleksi" kimi hər hansı bir elmi nəzəriyyənin adını daşıya biləcək psixo-dramatik durumlar doğa bilərdi.**



**Aynurə İBADULLAH**

"Füzuliyə münasibətdə çox böyük səhvini, bağışlanmaz günahını" (Zəkulla Bayramlı) Axundzadəyə bağışlamazdılar, əgər ortalıqda qaranlığa gömülmüş bir zehniyyət faktı olmasaydı, ədəbiyyatın bütün dadınıduzunu Füzulidə tapanların qəzəbindən Axundzadəni heç nə xilas edə bilməzdi, nə onun böyük xidmətləri, nə rasional təfəkkürü, nə də Füzulini tənqidindəki həqiqət payı. Həqiqət isə yalnız ondan ibarət deyildi ki, "Füzulidən sonra Azərbaycan ədəbiyyatı getdikcə həyatdan uzaqlaşır, ayağı həyat torpağından üzülür, bayağılaşır, düşkünləşir və çıxılmaz bir tilsim içərisində çırpınırdı"(Cəfər Cabbarlı). Həqiqət həm də ondan ibarət idi ki, ədəbiyyat Füzuli "əngəli"ni aşıb Axundzadəyə çata, dramı doğura bilmirdi. Orta çağ qaranlığında, dünyanın uzaq guşəsində bədii təfəkkürün qəzəl ədəbiyyatından başqa bir şey yaratmaq şansı varıydımı? Əlbəttə, vardı! Bunu bu qədər əminliklə deyə bilməzdik, əgər Nizami olmasaydı. Nizami isə var idi, yetişmişdi. Özü də nəinki Şərqin, hətta dünyanın qaranlığa gömüldüyü çağda - XII əsrdə. Əlbəttə, bu zamandan baxanda dram çox uzaq üfüqlərdə görünür və ədəbiyyat bu uzaqlığa çatana qədər çox uzun - yeddi əsr yol gedib. Halbuki bu yol daha qısa idi, amma ona görə uzanmışdı ki, bədii söz Nizamidən uzaqlaşıb üzü Füzuliyə doğru yol almışdı, baxmayaraq ki Nizami özündən sonra Füzulini yox, Axundzadəni vəd edirdi.

Nizami elə bir ədəbi potensialın sahibi idi ki, əgər o, dünyanın əyalətində - Gəncədə deyil, mərkəzdə: Antik Yunanda və yaxud heç olmazsa, Romada doğulsaydı, bu enerjidən Antiqona, Medeya kimi dramatik qəhrəmanlar və yaxud "Edip kompleksi" kimi hər hansı bir elmi nəzəriyyənin adını daşıya biləcək psixo-dramatik durumlar doğa bilərdi. Amma "Coğrafiya alın yazısıdır" (İbn-Haldun) demişlər. Nizaminin də taleyinə Şərqdə doğulmaq, Şərq ədəbiyyatını yaratmaq düşmüşdü, özü də Şərq-islam ədəbiyyatını, Azərbaycan ədəbiyyatını deyil.

O zaman Azərbaycan ədəbiyyatı deyə bir şey də yox idi. Nizaminin doğum yeri, ata-ana kimliyi onun şəxsinin milli kimliyini təyin edə bilər, şair kimliyini yox və yaxud da dilində tapıb düzüb-qoşduğumuz türk sözləri milli şüurdan doğan deyil, milli yaddaşdan gələn kəlmələrdir, odur ki, onun doğum dəlillərinin keçərliliyindən, yaxud da dilindəki türk mənşəli sözlərin sayından, hesabından asılı olmayaraq Nizami Şərq-islam zehniyyətinin daşıyıcısı və o, ədəbiyyatın yaradıcısı idi, o cümlədən də Hafiz, Xəyyam, Şirazi.

Onları milliləşdirmək cəhdləri millət eqoları üzərindən edilən səmərəsiz səylərdir. Nizami ilə Xəyyam arasında türk və fars zehniyyəti deyə bir fərq yoxdur, yalnız Nizami, Xəyyam zehniyyəti deyə fərq vardır. "Orta çağ Azərbaycan ədəbiyyatı fars və ərəb ədəbiyyatlarının təsiriylə inkişaf etmişdir"(Murad Ağayev) fikri də bu baxımdan özünü doğrultmur. Çünki orta çağda Azərbaycan ədəbiyyatı olmadığı kimi ərəb, fars ədəbiyyatı deyə bir şey də yox idi, farsdilli, ərəbdilli ədəbiyyat vardı. Dil ədəbiyyatın ünvanını göstərmir, ədəbiyyatın ünvanını onun zehniyyəti bəlli edir. O zaman islam coğrafiyasında yazılı ədəbiyyat vahid müstəvidə - Şərq-islam zehniyyəti müstəvisində idi. Odur ki, Azərbaycan ədəbiyyatı fars və ərəb ədəbiyyatının təsirində deyildi, azərbaycanlı yazarlar fars və ərəb yazarları ilə birlikdə bu ədəbiyyatın yaradıcıları və Şərq-islam zehniyyətinin daşıyıcıları idilər.

Bu zehniyyətin hökm sürdüyü çağların və yerlərin isə hakim bir janrı vardı - poeziya! Bu janr öz yerini yalnız o zaman güzəştə getdi, daha doğrusu, getmək məcburiyyətində qaldı ki, Şərq-islam zehniyyətinin minillik hökmranlığı yeni düşüncə axınlarının təsiri və təzyiqləri qarşısında laxlamağa başladı və sonucda ədəbiyyatda tamam yeni bir janr - dram doğdu.

Bu janr niyə məhz bu zamanda doğdu, niyə o, Şərq-islam ədəbiyyatının minillik təcrübəsində var ola bilməmişdi? sualına - bunun üçün zəruri şərtlər və şərait yetişməmişdi - cavabını vermək olar. Amma məsələ burasındadır ki, şərtlər heç vaxt öz-özünə yetişmir, yetişdirilir. Bütün inqilablar, siyasi, sosial, mədəni sıçrayışlar ilk olaraq zehinlərdə doğmuş, toplumun içinə sızıb zehniyyət şəkli aldıqdan sonra isə hərəkətlənmələr yaratmışdır. Fransa XVIII əsrdə filosoflar çağını yaşadıqdan sonra nəinki özünün, bütün bəşəriyyətin taleyini yenidən yazan bir inqilab doğurdu. "Böyük insanlar Fransada şüurları yaxınlaşan inqilab üçün maarifləndirdilər" (K. Marks). Böyük Fransa inqilabı Dekart, Volter, Russo kimi filosofların əsərlərində, XX əsr Rusiya inqilabı isə XIX əsr rus ədəbiyyatında yetişmişdi. "İran inqilabının mənəvi atası isə Axundov sayılır" (Yaşar Qarayev).

Bəs Şərq humanitar fikri minilliyə sığan bir zaman ərzində niyə yeni bir zehniyyət doğura bilməmişdir? - sualına islam fəlsəfəsi ilə yanaşı, ədəbiyyatı da cavab verə bilər, ona görə ki Şərq humanitar fikri o dönəmdə özünü ən çox bədii sözdə ifadə edirdi. Bu suala ədəbiyyatın cavabına keçməzdən öncə onu qeyd edək ki, böyük işlər həmişə böyük ideyalardan doğulur, böyük ideyalar isə böyük zehinlərdə doğur. Belə zehinlər yoxmu idi o zamankı Şərq-islam ədəbiyyatında? Təbii ki, vardı. Amma onların enerjisi poeziyaya dönüşürdü və bu poeziyanın böyük hissəsi, ya gül-bülbül şeirlərindən ibarətdir, ya da mücərrəd, mistik düşüncənin simvolikasından. Doğrudur, lirika ilə yanaşı epik poeziya da vardı. Amma bu poeziyada epiklik forma idi, məzmun ola, zehniyyətə dönüşə bilməmişdi.

Orta çağ epik şeirinin zirvəsi "Leyli və Məcnun" lirik zehniyyət üzərində qurulub. Çoxsaylı "Leyli və Məcnun"lar içərisində Füzulinin "Leyli və Məcnun"unu zirvəyə qaldıran da məhz lirik zehniyyətin gücüdür. Bu güc Füzuli qələmində "Leyli və Məcnun" hekayəsini daha mistik, daha duyğusal edir, hətta bu duyğusallıq o mərtəbəyə yüksəlir ki, başına gələcəkləri bilib bu dünyaya gəlişinə ağlamasından başlamış, ölüm istəyinin dərhal yerinə yetməsinə qədər Allaha yaxınlıq mərtəbəsinə ucalan ömür yolunda Məcnunun yaşadığı hər şey duyğuların dili ilə dinir, hətta bu duyğular o qədər durulur, o qədər arınır ki, dünyəvilikdən uzaqlaşıb sonunda ilahiləşir, oxucunu bu dünyadan qoparıb ilahi aləmə aparır. Ora isə bu dünya ilə uğraşmağı çox da sevməyən, bütün fikrini-zikrini axirətə bağlayan Şərq insanının ən çox getmək istədiyi yer idi və əslində o, bu yolçuluğa çoxdan, hələ Füzuliyə qədərki poeziyada çıxmışdı.

Nizami isə onu bu yoldan döndərməyə, üzünü bu dünyaya tutmağa çağırırdı, ona görə də Şərq-islam zehniyyətini lirik şeirdən epik şeirə keçirməyə çalışmışdı. Doğrudur, ona qədər də bu ədəbiyyatda epik şeir vardı. Amma Nizami epik zehniyyət formalaşdırmağa cəhd etmişdi; duyğuların dalınca düşən deyil, düşünən, daşınan, dünyanı dərk etmək, dəyişmək istəyən zehniyyət. Ona görə də "İsgəndərnamə" əsərində düşüncə dünyasına - Antik Yunana qayıdış edir. Bu dünyaya qayıdış əsrlər sonra Avropada bəşər tarixinin ən böyük hadisəsini - Renessansı doğuracaqdı. Doğrudur, Nizaminin Antik Yunana qayıdışı Renessansla müqayisəyə gəlmir. Qərbin Antik Yunandan çox uzaqlaşıb özünün qaranlıq çağını yaşadığı XII əsrdə dünyanın çox uzaq guşəsində tamamilə başqa zehniyyət zolağında olan Nizaminin antik düşüncə dünyasının böyük düşünürləri ilə əsərində söhbətləşmək və yaxud bu dünyanı Şərqə daşımaq istəyən Böyük İsgəndərin obrazını yaratmaqdan ötə şansı yox idi. Nizami bu şansdan yararlanaraq həqiqəti müqəddəs kitablarda yox, alimlərin ağızlarında arayır, antik dünyanın yeddi fikir adamı ilə birlikdə yaradılışını sorğulayır, vəhyə sığınmır, zəkaya güvənirdi. Hətta o qədər güvənirdi ki, onun əsərlərində dünyanı fəth edən İsgəndər bir qadının - Nüşabənin, İran şahı Xosrov külüng çalan Fərhadın ağlı qarşısında məğlub görünür. XVIII əsr Avropa aydınlanmasının şüarına dönüşən Kantın "Sapere aude!" (Əqlindən istifadə etmək cəsarəti göstər!) fəlsəfəsi hələ XII əsrdə Nizami qəhrəmanlarının deviziydi. Sonrakı əsrlərdə onun səsi eşidilməz oldu, Nizaminin İbn Salam qarşısında öz gücünə güvənib cəsarət göstərən Leylisi Füzulidə mistik qüvvələrə sığınan Leyliyə dönüşdü.

*(Davamı olacaq)*